# Rayonumuzda əhalinin tibbi müayinəsi davam edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən ölkənin bütün bölgələrində olduğu kimi Qəbələ rayonunda da əhalinin pulsuz tibbi müayinəsi uğurla davam etdirilir. Rayon mərkəzi xəstəxanasının və diaqnostika mərkəzinin poliklinikalarında müayinə kabinetləri həftənin 6 günündə əhalini tibbi müayinədən keçirir. Bunlardan əlavə ayrı-ayrı kəndlərdə yaşayan ağır xəstə və daha yaşlı əhali arasında rayon mərkəzinə gələ bilməyənlər üçün təcili yardım maşını və həkim briqadası ayrılmış, bu briqada da ehtiyac olduqda yerlərdə müayinə aparmağa yollanır. Təcili yardım avtomaşını lazımi dərman və tibbi preparatlarla təchiz olunmuşdur.

Əhalinin tibbi müayinəsinin mütəşəkkil keçirilməsi üçün rayon icra hakimiyyəti tərəfindən təsdiq edilmiş tədbirlər planına ciddi nəzarət olunur, ayrı-ayrı idarə və müəssisələrin kollektivlərinin, kəndlər və bütün yaşayış məntəqələri üzrə tibbi müayinəsi üçün tərtib olunmuş qrafikin pozulmasına yol verilmir. İndiyədək rayonun idarə və müəssisələrində işləyən kollektivlərin tibbi müayinəsi demək olar ki, başa çatdırılmışdır. 40 yaşayış məntəqəsində 18 yaşından yuxarı əhali bütünlüklə tibbi müayinədən keçmişdir.

Ümumiyyətlə, aprelin 9-dək rayon üzrə tibbi müayinədən keçirilməsi nəzərdə tutulan 69.263 nəfər əhalidən 55 min nəfərinin tibbi müayinəsi başa çatdırılmışdır. Tibbi müayinədən keçənlərdən 4.200 nəfəri ambulator müalicəyə məsləhət görülmüş 227 nəfəri isə stasionar müalicəyə cəlb edilmişdir. 143 nəfər isə yenidən müayinə və müalicə üçün Bakı şəhərinə, ixtisaslaşdırılmış tibbi müəssisələrə göndərilmişdir.

Prezidentin tapşırığı ilə aprel ayının sonunadək rayonda pulsuz tibbi müayinənin uğurla başa çatdırılması nəzərdə tutulur.

**Foto S. Umuyevindir.**

# Ağac əkmək, yaşıllıq salmaq, onları qorumaq bəşəriyyətə xidmətdir

Ölkəmizdə ən çox ağac əkmək və yaşıllıqlar salmaq ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Hakimiyyətə gəldiyi ilk illərdə onun şəxsi göstərişi və təşəbbüsü ilə birinci növbədə əhalinin sıx məskunlaşdığı Bakı şəhərində və eləcə də ətraf qəsəbələrdə yaşıllıqlar salınması işlərinin genişləndirilməsi üçün Azərbaycan Respublikası hökuməti tərəfindən xüsusi qərar verilmişdir.

Ulu öndərin yaşıllıq salmaq, ağac əkmək, onları qorumaq, becərmək barədə nitqlərinin birində dediyi ifadələri qeyd etmək yerinə düşərdi: «Mən dəfələrlə demişəm, bir də deyirəm. Kim hansı bir sağlam ağacı kəsirsə hesab edirəm ki,o mənim qolumu, barmaqlarımı kəsir. İnsan qurub yaratmalıdır. Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir və onu qorumalıdır». Ulu öndərin dediyi bu sözlər respublikamızın bütün əhalisinin meşə və yaşıllığa olan münasibətini dəyişmiş, onların bu istiqamətdə maariflәndirilməsi böyük əhəmiyyət kəsb etmişdir.

Bu gün də ətraf mühit və yaşıllıqlara dövlət səviyyəsində qayğı Azərbaycan Respublikasının Prezitdenti cənab İlham Əliyevin sosialyönümlü siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısının bu məsələ ilə əlaqədar verdiyi sərəncamlar ekologiyanın qorunmasına ölkəmizin yaşıllaşdırılmasına və ətraf landişaftın təmizliyinə və saflığına xidmət edir.

Heydər Əliyev fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün təsisçisi Leyla Əliyevanın layihəsi əsasında ötən ilin noyabr ayının əvvəlindən ölkəmizdə, «Ümumrespublika yaşıllaşdırma» marafonuna start verilmişdir.

Marafonun əsas məqsədi yaşıllıq sahələrinin azalmasının yarada biləcəyi təhlükələrin qarşısını almaq, yeni-yeni ağacların,gül kollarının əkilməsini təbliğ etmək və cəmiyyətin diqqətini ətraf mühitin mühafizəsinə yönəltməkdir. Bu möhtəşəm marafonla əlaqədar Azərbaycan Respublikası Həmkarlar Komitəsi də bütün təşkilatlarına bu aksiyalarda fəal iştirak etməyi məsləhət bilmişdir.

Bütün hallarda olduğu kimi bu möhtəşəm marafona da Qəbələ rayonunun rəhbərliyi tərəfindən çox məsuliyyətlə yanaşılmış və qarşıya qoyulmuş məsələlərin icrası məqsədi ilə tədbirlər planı tutularaq icrası nəzarətə götürülmüşdür. Bunun bariz nümunəsi olaraq mart ayının 14-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rəhbərliyi və iştirakçısı olduğu ümumrayon aksiyasını misal göstərmək olar.

Bu aksiyada rayonun bütün idarə müəssisələri iştirak etmiş, parklarda, istirahət mərkəzlərində, yol kənarlarında təmizlik işləri aparılmış, qurumuş ağac və gül kolları yeniləri ilə əvəz edilmişdir. Həmin gün Oğuz—Qəbələ avtomobil yolunun kənarında 3000-ə qədər ağac əkilmişdir. Bu kampaniya aprel ayının sonunadək davam etdiriləcək, yeni əkilmiş hər bir ağac, yeni salınmış hər bir park ulu öndərin anadan olmasının 92-ci ildönümünə ən yaxşı töhvə olacaqdır.

**Fərman HACIYEV,**
**DİXİHİ Qəbələ Rayon Komitəsinin sədri, Azərbaycan Respublikasının əmək veteranı.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**11 aprel:** Akademik, geologiya-minerologiya elmləri doktoru **Musa Əliyev** Şamaxıda (1908—1985) anadan olub. Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyasının) direktoru, Elmlər Akademiyasının prezidenti (1950—1958), Azərbaycan Dövlət Universitetində kafedra müdiri kimi vəzifələrdə işləmişdir. Əlcəzairdə sovet mütəxəssislərinin apardığı geoloji-kəşfiyyat işlərinə rəhbərlik etmiş, çoxcildlik «Azərbaycan geologiyası» əsərinin müəllifidir. 2—4-cü çağırışlarda SSRİ Ali Sovetinə deputat seçilmişdir.

**12 aprel:** Beynəlxalq Aviasiya və Kosmonavtika günüdür. Həmin gün sovet kosmik gəmisi ilə **Yuri Qaqarin** dünyada ilk dəfə Yer kürəsi orbitinə çıxarılmış və 2 saat Yer ətrafında fəzada dövrə vurduqdan sonra sağ-salamat Yerə qayıtmışdır.

Məşhur xanəndə, xalq artisti **Seyid Şuşinski** (1889—1965) anadan olmuşdur. 15 yaşından oxumağa başlamışdır. Tiflisdə təşkil olunmuş «Şərq konserti»ndə çıxış etmiş, yığılan pulu yeni açılan «Auditoriya» klubuna bağışlamışdır. «O olmasın, bu olsun», «Arşın mal alan» filmlərində Sərvər və Əsgər rollarını oynamışdır. «Molla Nəsrəddin» jurnalının nəşrinə, Azərbaycan teatrı artistlərinə, kasıb tələbələrə kömək etmişdir. 1924-cü ildən Azərbaycan Dram Teatrında çalışıb, filarmoniyanın solisti, Opera Teatrında muğam operası üzrə məsləhətçi işləmişdir.

**13 aprel:** 1940-cı ildə şahmat üzrə beynəlxalq dərəcəli hakim **Faiq Həsənov** Tbilisidə anadan olub. 1984-cü ildə Solonikidə (Yunanıstan) Ümumdünya Olimpiadasında hakimlik edib.

**14 aprel:** 1870-ci ildə görkəmli dövlət xadimi, yazıçı, dramaturq **Nəriman Nərimanov** anadan olmuşdur. Odessada Tibb Universitetini bitirəndən sonra (1908) Bakıda həkim işləyib. 1909-cu ildə Tiflisdə həkim işləyərkən inqilabi fəaliyyətinə görə həbs olunub. 6 ay Mitex qalasında saxlanılıb. 1913-cü ildə yenidən Bakıya qayıdaraq həkim işləyib, eyni zamanda ədəbi-publisistik və inqilabi fəaliyyətini davam etdirib. 1920-ci ildə Azərbaycan Xalq Komissarları Sovetinin sədri seçilib. 1922-ci ildə Sovet nümayəndə heyətinin üzvü kimi Beynəlxalq Genuya Konfransında iştirak edib. Moskvada işləyərkən 1925-ci ildə mart ayının 19-da qəflətən vəfat edib. Kreml divarı yanında dəfn olunub.

Xalq artisti **Fatma Qədri** (1907—1968) Odessada anadan olub. Bakıda Teatr Texnikumu, Pedaqoji İnstitutu bitirib. Səhnə fəaliyyətinə 1927-ci ildə başlayıb.

**16 aprel.** Bəstəkar, əməkdar incəsənət xadimi **Qəmbər Hüseynli** (1919—1961) anadan olub. Mahnılar, simfonik pyeslər, dram tamaşalarına musiqi yazıb. «Cücələrim» mahnısı dünyada tanınır.

Məşhur aktyor, rejisor və senarist **Çarli Çaplın** (1889—1977) dünyaya gəlib, 1954-cü ildə Beynəlxalq Sülh mükafatı alıb. Çəkildiyi kinokomediyalar dünya kinematoqrafiyasının incilərindən sayılır.

Terapiya üzrə ilk azərbaycanlı qadın, elmlər doktoru **Zərəngiz Tağızadə** 1927-ci ildə anadan olub. Tədqiqatları əsasən kardiologiyanın aktual məsələlərinə həsr edilmişdir.

**17 aprel:** Bəstəkar **Zülfüqar Hacıbəyov** (1884—1950), SSRİ xalq artisti **Lütfiyar İmanov** (1928—2008), tibb sahəsində ilk azərbaycanlı qadın, professor və kafedra müdiri, mama-ginekoloq **Adilə Şaxtaxtinskaya** anadan olmuşlar.

**18 aprel:** İlk professional qadın müğənni **Şövkət Məmmədova** (1897—1981)Tiflisdə (hazırda Tbilisi) anadan olub. 1911-ci və 1927—1929-cu illərdə Milanda, Kiyev Konservatoriyasında oxuyub.

**19 aprel:** Bəstəkar, drijor, xalq artisti **Əfrasiyab Bədəlbəyli** (1907—1976) anadan olub. Ik Azərbaycan baletinin—«Qız qalası»nın müəllifidir. Operalar, simfonik poema, təntənəli marş, bir sıra baletlərin librettosunu yazmışdır.